Layihənin nömrəsi: **EİF-Mob-6-2014-3(18)-07/07/5-M-01**
Layihənin adı: **Mədəni dəyərlərin transformasiyası şəraitində nəsillərarası münasibətlərin sosial psixologiyası**
Müqavilənin imzalanma tarixi: **06 mart 2015-ci il**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynova Gülnarə Qulu qızı**
Layihənin yerinə yetirilmə müddəti: **30 gün**
Layihənin başlama və bitmə tarixi: **16 mart 2015-ci il- 16 may 2015-ci il**
Qrantın məbləği: **6500 manat**

Qısamüddətlı elmi təcrübə Rusiya Federasiyasının Sankt-Peterburq Dövlət Universitetinin Psixologiya fakültəsində keçmışdir (26mart 2015-ci il – 24 aprel 2015-ci il tarixlərində).

Universitetin rektoru –Kropaçov Nikolay Mixayloviç, fakültə dekanı – Şaboltas Alla Vadimovna. Təcrübə keçməyə məsul şəxs Nikandrova Qalina Petrovna, elmi məsləhətçi isə prof. Svensitskiy Anatoliy Leonidoviç idi.

Qısamüddətli elmi təcrübə barədə
HESABAT

1.Sankt-Peterburq Universitetində ilk görüş 2015-ci ilin mart ayının 26-də təcrübəkeçməyə məhsul şəxs – Nikandrova Qalina Petrovna ilə olmuşdur. Nikandrova Q.P. ilk gündən məni psixologiya fakültəsinin dekanı A.V. Şaboltas, sosial psixologiya kafedrasının müdiri A.L. Sventsitskiy və kafedranın bir neçə əməkdaşları, eləcə də fakültənin digər kafedraları ilə (ümumi, yaş, pedaqoji, klinik psixologiya, ontopsixologiya və s.) tanış etdi. Bundan əlavə mənə universitetin elektron resurslarına daxil olub, mövzum ilə bağlı zəruri ədəbiyyatdan faydalanmaq üçün şəxsi elektron login və parol verilmişdi.

Elə həmin gün rəsmi elmi məsləhətçi A.L.Sventsitskiy ilə təcrübə keçmənin məqsədi və vəzifələri barədə ətraflı söhbət aparıldı, tədqiqat işinin mövzusu geniş müzakirə olundu. Yekunda bir aylıq məsləhət saatları və iş planı bir daha nəzərdən keçirilib, təsdiqləndi (iş planı əlavə olunur).

2.Təsdiq edilmiş iş planına uyğun olaraq mütəmadə şəkildə prof. Sventsitskiy ilə görüşərək, mövzumla bağlı yaranan sualları müzakirə edib, tədqiqat zamanı qarşıya çıxan məsələlərin həlli yolları barədə məsləhətlər alırdım (təsdiq olunmuş müqaviləyə əsasən məsləhət saatlarının ümumi həcmi 30 saat təyin edilmişdi). Eyni zamanda

kafedranın digər əməkdaşları (prof. V.N. Kunisina, prof. L.Q.Poçebut, prof. S.D.Guriyeva, prof. Y.V.Sidorenko) nəsillərarası münasibətlər və mədəni dəyərlərin psixoloji tədqiqi sahəsində apardıqları elmi araşdırmaların nəticələri ilə bölüşüb, analoji tədqiqatları aparmaq üçün zəruri məsləhətlər verdilər. Əlavə olaraq, inkişaf və diferensial psixologiya kafedrasının əməkdaşı dos. O.Y.Strijitskayanın elmi maraq dairəsi mənim mövzuma yaxın olduğundan onunla bir neçə dəfə görüşüb, onun elmi araşdırmaları ilə tanış oldum

3.Təcrübəkeçmə zamanı nəzərdə tutulan məqsədlərdən biri Sankt-Peterburq Dövlət universitetinin əməkdaşlarının pedaqoji təcrübəsi, onların dərs aparma üslubu ilə tanış olub, bizim üçün maraqlı və yeni olanlardan faydalanmaq idi. Bu məqsədlə mən prof. Svensitskiy ("Sosial psixologiya"), prof. L.Q. Poçebut ("Etnik və kros-mədəni psixologiya") və prof. L.V. Kulikovun ("İctimai şüur və əhval-ruhiyyə") oxuduqları bir neçə mühazirələrdə iştirak etdim. Qeyd edim ki, mühazirələr bir çox zaman məzmunca mənə tanış olsa da, materialın təqdim üslubunda, onun tələbələrə çatdırma yollarında (xüsusən də texniki vasitələrin optimal istifadəsi baxımından) özüm üçün maraqlı və faydalı məlumatı əldə edə bildim.

4.Təcrübəkeçmənin əsas məqsədlərindən biri mövzumla bağlı rus və qərb psixoloqlarının son illərdə apardıqları tədqiqatlarla yaxından tanış olub, mümkün qədər geniş elmi ədəbiyyat toplamaq idi. Bunun üçün ezamiyyətə ayrılmış zamanın böyük qismini universitetin kitabxanasında (M. Qorki adına Elmi kitabxana) işləyib, elmi araşdırmalara sərf etdim. Burada həm yalnız çap variantı olan elmi əsərlərlə, həm də elektron resurslarda mövcud olan ədəbiyyatla tanış oldum, onlardan mənim üçün faydalı olanları mümkün qədər əldə edib, topladım.

5.Sankt-Peterburq universitetində təcrübə keçdiyim dövrdə iki dəfə sosial psixologiya kafedrasının iclası keçirilmişdi və hər ikisində mən iştirak etmişəm. Həmin iclasların birində elmlər namizədi (fəlsəfə doktoru) adı almaq üçün kafedranın dissertantı Y.Sinelnikova tərəfindən təqdim edilmiş elmi iş, digərində isə magistr dissertasiyaları müzakirə edildi. Hər iki müzakirə həm pedaqoji, həm də elmi nöqteyi nəzərindən mənim üçün maraqlı oldu.

6.Ezamiyyətin son günlərində Sankt-Peterburq universitetinin psixologiya fakültəsində ənənəvi elmi-praktik konfrans keçirildi. Bu ilki konfrans "XXI-ci əsrin psixologiyası: akademik keçmiş və gələcək" adlanırdı. Konfransın formatı bir qədər qeyri-ənənəvi idi, çünki burada həm tələbələr öz ilk elmi araşdırmalarını təqdim edirdi, həm də universitetin professor-müəllim heyəti son ildə apardıqları elmi-praktik tədqiqatların nəticələri ilə geniş auditoriya ilə bölüşürdülər. Eyni zamanda Rusiyanın digər universitetlərindən və xaricdən dəvət olunmuş professorlar tələbələr üçün mühazirələr deyir, bəziləri isə praktiki psixoloji bacarıqları aşılamaq üçün master-klass

keçirirdilər. Qeyd etmək lazımdır ki, professor-müəllim heyətinin çıxışlarının böyük əksəriyyəti onların cari il ərzində müxtəlif qrantlar çərçivəsində apardıqları tətbiqi işlərin bir növ hesabatı xarakteri daşıyırdı; və bu hesabat həm məruzə formatında, həm də poster-təqdimat formatında ola bilərdi.

Konfransın, demək olar ki, bütün plenar iclaslarında iştirak etdim, həmçinin mənim üçün maraqlı olan ayrı-ayrı seksiyaların işlərində iştirak etdim. Eyni zamanda tədqiqat mövzuma yaxın olan poster-təqdimatları mümkün qədər dinlədim. Bundan əlavə psixologiya fakültəsinin dekanı A.V.Şaboltas, fakültənin əməkdaşlarından O.N.Boqolyubova və İ.İ.Znamenskaya tərəfindən təqdim edilən master-klassları dinlədim, M.Porubanovanın (Nyu-York Dövlət universiteti, ABŞ) söylədiyi mühazirədə iştirak etdim.

Mənim üçün maraqlı olan məqamlardan biri də tələbələrin təqdimatları idi. Onların kiçik də olsa apardıqları elmi-praktik araşdırmaları, təhsildə aldıqları nəzəri bilikləri konkret şəraitdə və konkret insanlarla tətbiq etmək həvəsi, aldıqları nəticələri təqdim etmə bacarığı bir müəllim kimi mənim diqqətimi cəlb etməyə bilməzdi.

Sonda qeyd etmək istərdim ki, konfransda iştirakım mənim üçün həm işlədiyim mövzu ilə əlaqədar, həm də pedaqoji fəaliyyətimlə bağlı maraqlı və faydalı oldu. Burada dinlədiyim məruzələr, təqdimatlar birbaşa mənim mövzumla bağlı olmasalar belə, istənilən halda elmi işim üçün faydalı ola biləcək ümumilikdə tədqiqat işinin aparılması üslubu və formatı baxımından yeni ideyalar və fikirləri mənimsəyib, öz tədqiqatlarımda istifadə edə biləcəm.

**Təcrübəkeşmə zamanı istifadə olunmuş üsul və yanaşmalar.**

Təcrübəkeçmənin məqsədinə uyğun olaraq əsas istifadə etdiyim üsul – elmi ədəbiyyatın toplanılıb, öyrənilməsi və mümkün qədər ümumiləşdirilməsi. Bundan başqa fakültənin əməkdaşları ilə görüşərkən və konfransda iştirak zamanı müzakirə, müqayisə və müşahidə üsullarından istifadə olunub. Ümumilikdə isə qarşıma qoyduğum məsələləri çalışmışam sistemli yanaşmadan çıxış edərək həll edim.

**Təcrübəkeşmə zamanı əldə edilmiş nəticələr və gözlənilən tədbiq sahələri.**

Təcrübəkeçmə zamanı əldə olunmuş əsas nəticə ondan ibarətdir ki, mədəni dəyərlərin transformasiyası və onların nəsillərarası münasibətlərə təsiri probleminə aid kifayət qədər elmi-psixoloji ədəbiyyat topladım, eləcə də bu problemin tədqiqi üçün yararlı olan metodik apparat əldə etdim. Sadalanan elmi materiallar həm gələcək elmi araşdırmalarda yararlı olacaq, həmdə sosial və etnik psixologiya fənlərinin tədrisində maraqlı bir mənbə kimi istifadə oluna biləcək.

Sonda qeyd etmək istərdim ki, təcrübəkeçmə mənim üçün apardığım elmi tədqiqat baxımından çox faydalı oldu, çünki Sankt-Peterburq Universitetinin kitabxanasından istifadə mənim üçün geniş imkanlar yaratdı, burada əldə edə bilməyəcəyim ədədbiyyatla (istər çap, istər elektron variantlar) yaxından tanış olmaq imkanı əldə etdim. Eyni zamanda ümumiyyətlə həmin universitetin əməkdaşları tərəfindən aparılan digər (mövzuyla birbaşa bağlı olmayan) tədqiqatlarda maraqlı oldu və onlarda istifadə olunan yanaşma və üsulları öz təcrübəmizdə istifadə edə bilərik. Digər tərəfdən tələbələrin kafedralar tərədindən aparılan elmi araşdırmalara bu dərəcədə cəlb olunması da mənim üçün maraqlı idi, və bu mənə pedaqoji fəaliyyətimdə tələbələri daha çox praktiki işə cəlb olunmasına təkan verdi. Bundan başqa topladığım yüni ədəbiyyatı tədris etdiyim kurslarda grniş istifadə edirəm.

Layihə rəhbəri: BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının dosenti, Hüseynova Gülnarə Qulu qızı

Tarix: 22.09.2018